DOI: https://www.doi.org/10.36719/2789-6919/10/48-54

**Gülnarə Vilayət qızı Şahmuradova**
Azərbaycan Respublikasının Təhsil İnstitutu
elmi işçi
gulnara.shahmuradova@mail.ru
**Tavat Hüseyn qızı Muradlı**
Azərbaycan Respublikasının Təhsil İnstitutu
böyük elmi işçi
tavat.muradli2016@gmail.com
**Könül Vaqif qızı Mikayılova**
Azərbaycan Respublikasının Təhsil İnstitutu
böyük elmi işçi
konulmikayilova@rambler.ru

# DÜNYA ÖLKƏLƏRİNDƏ VƏ AZƏRBAYCANDA ERKƏN UŞAQLIQ DÖVRÜ TƏHSİLİNİN TƏŞKİLİ

**Xülasə**

Məqalədə məktəbəqədər yaşlı uşaqların intelektual inkişafına xidmət edən bilik və bacarıqlar sisteminin əlçatanlığı, təkmilləşdirilməsi və inkişaf prosesinin izlənilməsi öz əksini tapmışdır. Məktəbəqədər təhsil müəssisələri şəbəkəsinin genişləndirilməsi, təhcizatının yaxşılaşdırılması dövlətin və cəmiyyətin maraqları çərçivəsində əsas hədəf kimi qarşıya qoyulmuşdur. Azərbaycan təhsil siyasətində və ideologiyasında uşaqların milli-mənəvi və bəşəri dəyərlər ruhunda, dövlət maraqları çərçivəsində tərbiyə olunması, ümumi təhsilə hazırlığının təmin edilməsi məktəbəqədər təhsil müəssisələrinin başlıca və ən əhəmiyyətli rolu hesab olunur. Məqalədə həmçinin UNESCO və Qlobal Təhsil Monitorinqi (GEM) tərəfindən dünya ölkələrində erkən uşaqlıq dövrü təhsilinin təşkilinə dair aparılan araşdırmalar, təhlil və nəticələr, qabaqcıl ölkələrin bu sahədəki ugurları öz əksinin tapmışdır. Finlandiya, İsveç, Danimarka, Norveç, Latviya, Estoniya, Almanya kimi ölkələrin "Erkən Uşaqlıq Dövrü Təhsili" siyasəti və onun təşkili araşdırılmışdır. YUNESKO-nun Statistika İnstitutu tərəfindən Avropa ölkələrinin, eləcə də Çilidə, Hindistanın Karnataka ştatında, İndoneziyada, İsveçdə, Xorvatiyada toplanmış inzibati məlumatlarda məqalədə yer almışdır.

***Açar sözlər:*** *ilkin təhsil, dövlət, cəmiyyət, maraqlar, zərurət*

**Gulnara Vilayat Shahmuradova**
**Tavat Huseyn Muradli**
**Konul Vagif Mikayilova**

## Organization of early childhood education in the world and Azerbaijan

**Abstract**

The article reflects the accessibility, improvement and monitoring of the development process of the system of knowledge and skills that serve the intellectual development of preschool children. Broadening the network of early childhood educational institutions and enhancing their supply sets as the major objective in the interests of the state and society. The education policy and ideology of Azerbaijan, the primary and most significant important role of early childhood education institutions is to bring up children in the spirit of national-moral and human values, within the national interest, to ensure their readiness for general education. The article also displays the research, analysis and results conducted by UNESCO and the Global Education Monitoring (GEM) on the organization of early childhood education in countries around the world and the achievements of leading countries in this field. The policy and organization of "Early Childhood Education" in countries ex. Finland, Sweden, Denmark, Norway, Latvia, Estonia and Germany studied. In conclusion, the article reflects the

administrative data collected by the Unesco Institute of Statistics in European countries, but also in Chile, Karnataka, India, Indonesia, Sweden and Croatia.
***Key words:*** *early education, state, society, interests, necessity*

## Giriş

Təhsil, öyrənmək bütün dövlərdə, sosial-iqtisadi vəziyyətlərdən asılı olmayaraq ən vacib məsələdir. İnsan ömrü boyu öyrənməyə, təhsil-tərbiyə almağa ehtiyac duyur. Bu səbəbdən də təhsil daim fasiləsiz yenilənən, inkişaf edən təlim prosesidir.

Məktəb hər zaman təlim və tərbiyə ocağı hesab olunub. Məktəb bütün dövrlərdə yetişən nəslə elmin əsaslarını öyrətməklə yanaşı, onların cəmiyyətə və müstəqil həyata hazırlanması kimi mühüm vəzifəni də həyata keçirmişdir. Bu gündə belədir.

Texnologiyanın imkanlarının genişləndiyi bir dövrdə məktəbin də fəaliyyəti, öhdəlikləri durmadan artır və inkişaf edir. Belə ki, məktəb bu gün müasir, hərtərəfli, cəmiyyətə yararlı şəxsiyyətlər yetişdirməlidir. Məhz müasir cəmiyyətin qurulması və inkişafı məktəbdən, təlim-tərbiyədən aslıdır.

Təlimə orta məktəbdən başlamaq fikrimizcə gec olardı. Belə ki, ölkəmizdə və dünyada bütün təhsilin pillələri məktəbəqədər təhsil pilləsindən başlayır. Yetişən nəsil, uşaqlar, gələcəyin şagirdləri ilkin anlayışları məktəbəqədər təhsil pilləsində öyrənirlər.

Məktəbəqədər təhsil – məktəbəqədər yaşlı uşaqların intellektual, fiziki və mənəvi inkişafına xidmət edən ilkin bilik, bacarıq və vərdişlərin mənimsənilməsi prosesidir.

Fasiləsiz təhsil sisteminin ilk pilləsi olan məktəbəqədər təhsil fərdin, cəmiyyətin və dövlətin maraqları nəzərə alınmaqla davamlı inkişaf etdirilən fəaliyyət sahəsidir. Dövlətimiz tərəfindən həyata keçirilən islahatlar, layihələr, xüsusi dövlət proqramları çərçivəsində məktəbəqədər təhsil sahəsində mövcud olan problemlərin həlli yolları araşdırılır, təhsilin müasir tələblər səviyyəsində qurulmasının təmin olunması istiqamətində kompleks tədbirlər həyata keçirilir. Ölkəmiz müstəqillik əldə etdikdən sonra bütün sahələrdə olduğu kimi təhsilin ilk pilləsi olan məktəbəqədər təhsil sahəsi də inkişaf etməyə başladı. Məktəbəqədər təhsilin inkişaf etdirilməsi üçün məktəbəqədər müəssisələrin tələblərə cavab verməsi tələb olunur. Hazırda ölkəmizdə 1825 körpələr evi-uşaq bağçası, məktəbəqədər təlim-tərbiyə müəssisəsi fəaliyyət göstərir ki, bunların da 1692-i dövlət, 133-ü özəl məktəbəqədər təhsil müəssisəsidir. Bu müəsisələrdə 126 mindən çox uşaq dövlət, 5124 min uşaq özəl məktəbəqədər təhsil müəssisələrində təlim və tərbiyə alır. Məktəbəqədər təhsil müəssisələrində 17218 min nəfər uşaqların təlim - tərbiyəsi və əmək fəaliyyəti ilə məşğuldur (DSK, 2012:1).

Məktəbəqədər təhsil sahəsində mövcud problemlərin aradan qaldırılması Azərbaycan dövlətinin təhsil siyasətində başlıca vəzifə hesab edilir. "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyasında ölkə üzrə azyaşlı uşaqların məktəbəqədər təhsilə cəlb olunma səviyyəsinin orta Avropa göstəricisi səviyyəsinə çatdırılması bu istiqamətdə qarşıya qoyulan əsas məqsəd kimi öz əksini tapır (2020: maddə 1462). Məktəbəqədər təhsil müəssisələri şəbəkəsinin genişləndirilməsi, onların şərait və təchizatının yaxşılaşdırılması, eyni zamanda bu sahədə müxtəlif tipli (məsələn, icma və ailə tipli) müəssisələrin yaradılması bu məqsədə nail olmağın əsas istiqaməti hesab olunur.

Konsepsiyada göstərilən bu məqsədlərə nail olmaq üçün Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə 20 dekabr 2021-ci ildə təsdiq edilən "Azərbaycan Respublikasında Dövlət məktəbəqədər təhsil sistemində idarəetmənin təkmilləşdirlməsi haqqında" sənəddə də məktəbəqədər təhsilin inkişafına xidmət edən bir sıra hədəflər öz əksini tapıb (Əliyev, 2021:1).

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq təsdiq edilmiş bu sərəncamda qeyd edilir ki, bütün məktəbəqədər təhsil müəssisələri yerli icra hakimiyyətinin tabeliyindən alınaraq Azərbaycan Respublikasının Təhsil Nazirliyinin tabeliyinə verilsin (2016: maddə 158).

Bu sərəncamın əsas məqsədi məktəbəqədər təhsil müəssisələrində məktəbəqədər yaşlı uşaqlara ilkin biliklərin verilməsi və onların məktəbə hazırlananması keyfiyətinin artırılmasıdır.

Uşaqların erkən yaş dövrlərində əqli, fiziki, yaradıcı potensialının və mədəni səviyyəsinin inkişafı, psixoloji dayanıqlığı, estetik tərbiyəsinin, zövqünün, ətraf aləmə, şəxsi gigiyenanın və sağlamlığın qorunmasına həssas və şüurlu münasibətin formalaşdırlması, sadə və ilkin əmək vərdişlərinə

yiyələnməsi, şəxsiyyət kimi formalaşdırılması məktəbəqədər təhsil vasitəsilə həyata keçirilir və onların qarşısında duran başlıca vəzifə hesab edilir.

Uşaqların milli-mənəvi və bəşəri dəyərlər ruhunda, dövlət maraqları və azərbaycançılıq ideologiyası əsasında tərbiyə olunmasında, ümumi təhsilə hazırlığını təmin edilməsində məktəbəqədər təhsil müəssisələri başlıca və əhəmiyyətli rola malikdir. Məktəbəqədər təhsil müəssisələrində tərbiyə alanlar idraki baxımdan təhsilə daha hazırlıqlı olurlar.

Bu səbəbdən də məktəbəqədər təhsil müəssisələrinə bütün uşaqların cəlb edilməsi zəruridir. Belə ki, insan ömür boyu öyrəndiyinin böyük bir hissəsini altı yaşına qədər mənimsəyir. Çünki məhz bu yaş dövründə uşağın idraki və fiziki inkişafının təməli qoyulur. Məktəbəqədər təhsil müəssisələrində tərbiyə almış uşaqlar istər idraki, emosional, istərsə də fiziki baxımdan ümumi təhsil müəssisələrində təhsilə daha hazırlıqlı olurlar. Uşaqların fiziki, sosial və idraki inkişafının şəfaf, əhatəli, sistemli, ardıcıl düşünülmüş şəkildə təşkili onun bütün gələcək taleyinə təsir etdiyindən məktəbəqədər təhsil dövrü xüsusi rol oynayır.

İstər məktəbəqədər təhsil müəssiələrinin, istərsə də məktəblərdə təşkil edilmiş məktəbəhazırlıq qruplarına uşaqlar 5 yaşı cari ildə tamam olduqda qəbul olunurlar.

Məktəbəqədər haqqında Azərbaycan Respublikasının Qanunu Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 1-ci bəndinə uyğun olaraq (2017: maddə 1335), Azərbaycan Respublikasında məktəbəqədər təhsilin təmin olunması sahəsində dövlət siyasətinin prinsiplərini, məktəbəqədər təhsilin təşkilati-hüquqi və iqtisadi əsaslarını müəyyən edir.

Qanunun 1-ci fəsilin 8-ci maddəsində məktəbəqədər təhsilin təşkili qaydaları aşağıdakı kimi öz əksini tapmışdır.

8.1. Azərbaycan Respublikasında məktəbəqədər təhsil 1-6 yaşlı uşaqları əhatə edir.

8.2. Məktəbəqədər təhsil müəssisəsində gün rejimi normaları və qaydaları, uşaqların yaş dövrləri üzrə qruplara bölünməsi, hər bir yaş dövründə təhsilin məzmunu və istiqamətləri müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir.

8.3. Məktəbəqədər təhsil müəssisəsində qruplar məktəbəqədər təhsil müəssisəsinin növünə və uşaqların yaşına uyğun komplektləşdirilir.

8.4. Məktəbəhazırlıq beş yaşlı uşaqlar üçün zəruridir.

8.5. Məktəbəhazırlıq məktəbəqədər təhsil müəssisələrində, ümumi təhsil müəssisələrində, habelə ailədə həyata keçirilir. Məktəbəhazırlığın təşkili qaydası müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir.

8.6. Bir uşağın, eyni zamanda, dövlət məktəbəqədər və ümumtəhsil müəssisələrində, habelə digər müəssisə və təşkilatlarda dövlət hesabına məktəbəhazırlıq təhsili almasına yol verilmir.

8.7. Məktəbəqədər təhsil müəssisəsi fəaliyyət göstərməyən ərazilərdə valideynlərin istəyi ilə ailə tipli və ya icma əsaslı, yaxud qısamüddətli təlim qrupları yaradıla bilər.

8.8. Ailə tipli, icma əsaslı, qısamüddətli təlim qruplarında məktəbəqədər təhsilin təşkili qaydası müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir.

8.9. Dövlət məktəbəqədər təhsil müəssisəsinə, ilk növbədə, şəhid ailələrinin, Qarabağ müharibəsi iştirakçılarının və *bununla əlaqədar əlilliyi olan şəxslərin*, tək işləyən valideynlərin, *I və II dərəcə əlilliyi olan şəxslərin*, hərbi xidmətdə olan valideynlərin, təhsilalan anaların uşaqları, çoxuşaqlı ailələrdən olan uşaqlar, qəyyumluqda olan uşaqlar qəbul edilirlər.

Qanunvericilikdə məktəbəqədər təhsil sahəsində başlıca fəaliyyət istiqamətləri aşağıdakı kimi verilir:

- Məktəbəqədər təhsil sisteminin fəliyyətini və onun inkişafını təmin edən normativ hüquqi bazanın yaradılmasında iştirak etmək;
- Məktəbəqədər təhsilin inkişafı ilə bağlı müxtəlif istiqamətli dövlət proqramlarının həyata keçirilməsinə nəzarəti təmin etmək;
- Təlim-tərbiyə prosesinin keyfiyyətinə, təhsil qanunvericiliyinin icrasına,
- məktəbəqədər təhsilin dövlət standartlarına riayət olunmasına nəzarət etmək;
- Qanunvericiliyə uyğun olaraq məktəbəqədər təhsil sistemində demokratik idarəetmənin tətbiqinə nəzarəti yerli icra hakimiyyəti orqanları ilə birlikdə həyata keçirmək;
- Məktəbəqədər təhsilin məzmunca yeniləşdirilməsinə nail olmaq.

Məktəbəqədər təhsilin sosial və fərdi üstünlükləri də vardır. Buna misal olaraq, ABŞ-da aparılan tədqiqat göstərir ki, məktəbəqədər təhsil orta məktəbi daha tez bitirməyə imkan verir.

UNESCO və Qlobal Təhsil Monitorinqi (GEM) tərəfindən dünya ölkələrində erkən uşaqlıq dövrü təhsilinin təşkilinə dair iki yeni araşdırma aparılmış, araşdırmaların nəticələrinə dair hesabat hazırlanmışdır (UNESCO, 2019:1). "Təhsilə başlayan ilk andan: inklüziv erkən uşaqlıq təhsili ilə inklüziv cəmiyyətlər qurun" adlı hesabatda UNESCO dünya ölkələrini erkən uşaqlıq dövrü təhsilini hamı üçün əlçatan etməyə çağırır. Hesabatda BMT-nin Dayanıqlı İnkişaf Məqsədlərinin dördüncüsünün ölkələrin həm qızlara, həm də oğlanlara təhsilə erkən yaşlardan başlamaq üçün bərabər imkanlar yaradılması olduğu qeyd olunur. UNESCO erkən uşaqlıq dövrü təhsilinin həm şagird, həm də müəllim üçün əhəmiyyətini vurğulayaraq, bütün ölkələri bu təhsil pilləsi ilə bağlı ciddi qərarlar qəbul etməyə, uşaqların ibtidai təhsilə hazırlanmaları üçün bu təhsil pilləsini icbari etməyi təklif edir.

Araşdırmanın nəticəsinə görə dünyada hər 4 uşaqdan 1-i erkən uşaqlıq dövrü təhsilindən (məktəbəqədər təhsildən) məhrumdur. Ümumilikdə isə araşdırmaya cəlb olunmuş 184 ölkədən yalnız 51-i (28 %) məktəbəqədər təhsili icbari etmişdir. UNESCO-nun Statistika İnstitutunun məlumatına görə erkən uşaqlıq dövrü təhsilinə cəlb olunmada ən sürətli inkişaf Azərbaycanda müşahidə olunmuşdur. Belə ki, erkən uşaqlıq dövrü təhsilinə cəlb olunma 2010-cu ildə 30%-dən 2019-cu ildə 74%-ə yüksəlib. Lakin statistik göstəricilərə görə hələ də dünyada məktəbəqədər təhsilə cəlb olunmayan uşaqlar çoxdur. Buna görə də, hökumətlər hər bir uşağın məktəbəqədər təhsilə cəlb olunmasını təmin etmək üçün səfərbər olmalıdır.

Həmçinin hesabatda xüsusi qayğıya ehtiyacı olan uşaqların ümumiyyətlə erkən uşaqlıq dövrü təhsilindən məhrum olunduğu bildirilir. Halbuki, xüsusi qayğıya ehtiyacı olan uşaqların təhsilə cəlb olunmasında erkən uşaqlıq dövrü təhsili əhəmiyyətlidir. Belə ki, məktəbəqədər təhsil xüsusi qayğıya ehtiyacı olan uşaqların şəxsiyyət kimi formalaşmasını, lazımi bilik, bacarıq və vərdişlərə yiyələnməsini təmin edir. Buna görə də qlobal tərəfdaşlıq bu cür uşaqların təhsil məqsədlərini aşağıdakı yollarla dəstəkləyir:

1. Erkən uşaqlıq dövrü təhsili ilə əlaqəli davamlı inkişaf hədəflərinə çatmaqda bütün ölkələri və əlaqədar beynəlxalq qurumları əməkdaşlıq etmək üçün səfərbər etmək.
2. Uşaq inkişafı və ailənin rifahının yaxşılaşdırılmasına xidmət edən siyasi və xidmət strategiyalarının həyata keçirilməsi məqsədilə koordinasiya və əməkdaşlıq etmək üçün mövcud idarələrarası və global tərəfdaşlıq əlaqələrini genişləndirmək.
3. 2018-ci ildə təhsilə orta hesabla 2%-lik büdcə ayıran aşağı və orta gəlirli ölkələrdə məktəbəqədər təhsilə qoyulan investisiyaları artırmaq.
4. 2016-cı ildə məktəbəqədər təhsilə ayrılan 7%-lik illik dəstəyi 2030-ci ilə qədər 10%-ə yüksəltmək.

Hesabatda deyilir ki, uşaqların məktəbəqədər təhsilə cəlb olunması uğurlu təhsilin başlanğıcıdır. Təhsilin əsası məktəbəqədər təhsil pilləsindən başlayır. Bu imkandan məhrum olan uşaqların təhsildə bünövrəsi yaxşı olmaya bilər. Tədqiqatdan aydındır ki, bu təhsil pilləsinə cəlb olunan şagirdlər gündəlik həyatlarında yiyələnə biləcəkləri pis vərdişlərdən uzaqlaşaraq daha yaxşı həyat şəraitinə qədəm qoyurlar. Bu da onları gələcəkdə cəmiyyətin sağlam düşüncəli bir nümayəndəsinə çevirir. Araşdırmada məktəbəqədər təhsilə marağın az olmasının səbəbləri aşağıdakı kimi qruplaşdırılıb (UNESCO, 2021:19-125).

1. Valideynlərin uşaqların öyrənməyə ibtidai təhsil pilləsindən başlamasının kifayət etdiyini iddia etməsi;
2. Valideynlərin uşaqların sinif otaqlarında deyil, daha gigiyenik və təhlükəsiz bir yerdə olmalarına ehtiyac duyması;
3. Ölkələrin məktəbəqədər təhsil pilləsinə laqeyd yanaşması;
4. Bəzi ölkələrin az gəlirli olması;
5. Kifayət qədər resursların olmaması;
6. Məktəbəqədər təhsil pilləsi üzrə uşaqların ehtiyaclarına cavab verən inklüziv kurikulumların olmaması.

Hesabat hökumətlərə erkən uşaqlıq dövrü təhsilinin hamıya əlçatan olmasını təmin etmək üçün aşağıdakıları nəzərə almasını təklif edir.

1. Erkən uşaqlıq dövrü təhsilinin hamıya əlçatan olması inkluzivlik əsas şərtdır.
2. Erkən uşaqlıq təhsilinin inklüzivliyi sosial inklüzivliyin bir hissəsidir.
3. Uşaqların ehtiyaclarının erkən aşkarlanması zəruridir.
4. Tədris proqramı (kurikulum) uşaqların ehtiyaclarına cavab verməlidir.
5. Tərbiyəçi-müəllimlərin bilik, bacarıq və davranışları uşaqların ehtiyaclarına uyğun olmalıdır.

Erkən uşaqlıq dövrü təhsilində inklüzivlik problemli məsələdir və problemi lazımi şəkildə həll etmək üçün hökumətlər, təhsil işçiləri və digər orqanların birgə əməkdaşlığına ehtiyac var. Onlar bu sahəyə sərmayə qoyaraq erkən uşaqlıq dövrü təhsilini hamı üçün əlçatan edə biləcək.

***Xaricir ölkələrin məktəbəqədər təhsilinin təhlili***

Məqalədə xarici öləkər də araşdırılmışdır. Belə ki, xarici ölkələrin məktəbəqədər təhsil sahəsində mövcud olan qabaqcıl təcrübəsini öyrənilməsi ölkəmizdə bu sahədə olan bir sıra çatışmamazlıqların aradan qaldırlmasına və inkişafına imkan yaradar. Araşdırma tədqiqata cəlb olunan ölkələrin sənədlərinin və statistik məlumatlarının təhlili istiqamətində aparılmışdır.

YUNESKO-nun Statistika İnstitutu tərəfindən toplanmış inzibati məlumatlara əsasən, 2010-cu illərdə ən sürətli irəliləyişlər Azərbaycanda (2010-cu ildəki 30%-dən 2019-cu ildə 74%-ə qədər), Burundidə (19%-dən 49%-ə), Qırğızıstanda (54%) müşahidə olunub. 90%-ə qədər Laos Xalq Demokratik Respublikası (36%-dən 69%-ə qədər) və Fələstin (41%-dən 65%-ə qədər) artmışdır. Lakin xüsusilə Konqo (sabit 29%), Niger (22%-dən 23%-ə qədər) və Seneqal (14%-dən 16%-ə qədər) kimi bəzi sub-Sahara Afrika ölkələrində də nəzərəçarpacaq dərəcədə durğunluq halları qeydə alınıb.

**Avropa ölkələrinin** 45%-i məktəbəqədər təhsili məcburi etsə də, müddət və modallıqda müxtəliflik var. Ümumilikdə, Avropanın 38 ölkəsindən 16-sı ən geci 3 yaşa qədər erkən uşaqlıq dövründə qayğı və təhsili nəzərdə tutur. Bir çox ölkələr, yoxsulluq, əlillik, Miqrasiya, dil, din və ya etnik mənsubluğa görə əlverişsiz vəziyyətdə olan qruplara məktəbəqədər təhsili əlçatan etmək bəzi hüquqi müddəaları qəbul edirlər. Məsələn, Norveçdə bəzi bələdiyyələrdə yoxsul ailələrdən olan 4-5 yaşlı uşaqlar həftədə 20 saat pulsuz məktəbəqədər təhsil hüququna malikdirlər, yerli Sami uşaqlarına isə yerli dillərini və mədəniyyətlərini inkişaf etdirmək üçün erkən uşaqlıq təhsili verilir.

**Çilidə** 4-cü sinif şagirdləri arasında aparılan araşdırma göstərir ki, məktəbə başlamazdan əvvəl məktəbəqədər təhsilə cəlb olunan uşaqlar oxu, riyaziyyat və sosial elmlər (təbiət) üzrə daha yüksək bal toplayıblar (Cortázar, 2015: 13-22.).

**Hindistanın Karnataka ştatında** məktəbəqədər təhsil alanların idrak inkişafın 1-ci sinfin sonunda 40%-ə catdığı bildirilir (Dean & Jayachandran, 2019:196).

**İndoneziyada,** ölkədəki kəndlərin təxminən 3000-nin və ya 4%-nin erkən uşaqlıq təhsilinə cəlb olunması yoxsul və zəngin uşaqlar arasında dil, koqnitiv inkişaf, ünsiyyət, ümumi bilik və sosialyönümlü davranışdakı nöqsanları aradan qaldırıb (Jung & Hasan, 2016: 216-233). Keniyada müəllim hazırlığı, sinifdə təlimat dəstəyi, tədris və təlim materialları və dörd rayonda sağlamlıq komponentini əhatə edən erkən uşaqlıq təhsili proqramında məktəbə hazırlığı əhəmiyyətli dərəcədə yaxşılaşdırdı (Ngware et al., 2018:173-183).

**İsveçdə** isə 1 yaşından etibarən bütün uşaqlar erkən uşaqlıq dövründə qayğı və təhsil almaq hüququna malikdir. 3 yaşından etibarən isə həftədə 15 saat pulsuz xidmətlər almaq hüququna malikdirlər. Xüsusi təhsilə ehtiyacı olan 1 yaşından kiçik uşaqlar hər həftə 15 saatlıq pulsuz erkən uşaq baxımı və təhsilə başlaya bilərlər. Bu dəstək, lazım olduqda, işçilərin və ya uşaqların sayı nəzərə alınaraq, bütün məktəbəqədər siniflərə şamil olunur.

Bir çox ölkələrdə məhdud imkanlı uşaqların dəstəklənməsi nəzərdə tutulur. **Xorvatiyada** 1997-ci il Məktəbəqədər təhsil haqqında qanuna uyğun olaraq əlilliyi olan uşaqların uşaq bağçalarına daxil olması vacibdir. Bütün uşaqların pulsuz ibtidai məktəbəqədər təhsil hüququna malik olduğu Fransada (2 yaşa qədər uzadılıb) məktəbəqədər təhsil müəssisələrində autizm spektri pozğunluğu olan uşaqlar üçün siniflər açılıb və digər uşaqlara sinif yoldaşlarının ehtiyaclarını başa düşmək öyrədilir.

Hər üç ildən bir keçirilən **Avstraliyanın** Erkən İnkişaf Siyahıyaalınmasında (AEDC) olan statıstık məlumatlara əsasən bildirilir ki, yerli uşaqlar və sosial-iqtisadi cəhətdən əlverişsiz ailələrdən olan uşaqların çox az qismi məktəbə başlamazdan məktəbəqədər təhsil müəssisələrinə və ya uşaq bağçalarına gedirlər. Məktəbəqədər müəssisələrə getmək həm gəlirli, həm də az gəlirli icmalardan olan uşaqlar üçün inkişaf diapazonunun zəif olması ehtimalının azalması ilə bağlı idi.

Bərabər imkanlar haqqında "Malta Qanunu" Xüsusi təhsil ehtiyacları olan uşaqların resurs mərkəzi, uşaqların inkişafı üzrə məsləhət şöbəsi, məktəblərə Dəstək Milli xidmətləri və təlim dəstəyi üzrə müəllimlərlə psixososial dəstək qrupları vasitəsilə 2 və 9 aydan yuxarı ümumtəhsil müəssisələrinə daxil olmasını təmin edir.

Bütün bunlardan əlavə aşağıda verilmiş cədvəldə (cədvəl 1.) bir sıra ölkələrin "Erkən Uşaqlıq Dövrü Təhsili" siyasəti və onun təşkili öz əksini tapmışdır.

***Cədvəl 1.*** *"Erkən Uşaqlıq Dövrü Təhsili"*

| **Ölkələr** | **Erkən uşaqlıq dövrü təhsil qanunu** | **Erkən uşaqlıq dövrü təhsilinin təşkili** |
|---|---|---|
| Finlandiya | Erkən yaşda təhsil və uşaq baxımı Qanunu (Ecce Qanunu) (540/2018 | ECCE Aktı uşağın səkkiz aylıq yaşından (Finlandiyada valideyn məzuniyyəti dövrünün sonu) yeddi yaş-məktəbə başlayana qədər (Eurydice, 2021) pulsuz ECCE hüququnu təşkil edir. |
| İsveç | Təhsil Qanunu (2010:800) | Uşağın üç yaşından etibarən ildə ən azı 525 saat pulsuz ECCE hüququnu müəyyən edir (Eurydice, 2020). Valideynlər öz iş öhdəliklərinə görə və ya uşağın ehtiyaclarına görə qayğı göstərə bilmədiklərində bələdiyyələrdən bir yaşdan 12 yaşa qədər olan uşaqlar üçün məktəbəqədər təhsil və uşaq baxımı təmin edilir. |
| Danimarka | Gündüz Baxımı haqqında qanun | ECCE-də 26 həftə (Avropa Komissiyası, 2020) yaş arası hər bir uşaq üçün yer zəmanətini təyin edir. Bələdiyyələr ECCE xidmətlərinin göstərilməsini təmin etməlidirlər. |
| Norveç | Uşaq bağçası Qanunu | Yerli bələdiyyələr uşaq bağçasında 1 yaşından etibarən uşqların ECCE təhsıl alma hüququ yaradır (Avropa Komissiyası, 2020) |
| Latviya | Təhsil Qanunu (maddə 17) | Təhsil Qanununun 17-ci bölməsi yerli hökumətlərdən 18 aylıqdan hər bir uşağın ECCE-yə daxil olmasını təmin etməyi tələb edir (Avropa Komissiyası, 2020) |
| Estoniya | Məktəbəqədər Uşaq qrumlarının Qanunu | Bələdiyyələr və ya şəhər orqanları 18 aylıq bütün uşaqları Məktəbəqədər təhsilə cəlb etmək imkanı ilə təmin etmək öhdəliyi var (Avropa Komissiyası, 2020) |
| Almanya | Sosial Məcəllə (SGB) - Səkkizinci Maddə (VIII | Bələdiyyələr bir yaşından etibarən bütün uşaqlar üçün mərkəzdə və ya evdə uşaq baxımında, üç yaşından etibarən isə mərkəzə əsaslanan müəssisələrdə yer təmin etməlidir (Avropa Komissiyası, 2020) |

Qeyd olunan ölkələrdə uşaqların valideyn nəzarətindən kənar qalmaması məqədilə onların hətta 12 yaşa qədər baxımı məqsədilə erkən uşaqlıq dövrü təhsilinin təşkili bələdiyyələr tərəfindən təmin edilir.

## Nəticə

Dünyaya inteqrasiya olunduğumuz, insan kapitalının, intellektin əsas götürüldüyü bir zamanda bütün bu tələblərə cavab verə biləcək nəsilin yetişməsində məktəbəqədər xüsusi əhəmiyyətə malikdir. Qeyd etdiyimiz kimi butun ilkin bilik və bacarıqlar məhz erkən uşaqlıq dövründə formalaşır. Bu baxımdan də məktəbəqədər təhsilin keyfiyyəti yüksək olarsa, ölkənin inkişafına töhfə verə bilər.

Bu baxımdan da bütün dünya ölkələri uşaqların ən azı bir il məcburi məktəbəqədər təhsil almasını təmin etməyə çalışır. Məktəbəqədər təhsilə cəlb olunmayan uşaqlar statistik göstəricilərə görə çoxdur. Məktəbəqədər təhsil sahəsində fəaliyyət göstərəcək tərbiyəçilərin uşaqlara kifayət qədər qayğı göstərə biləcək səviyyədə hazırlanması məktəbəqədər təhsilə cəlb olunan uşaqların sayını artıracaq. Uşaqlara yaxşı təhsil vermək üçün ölkələr UNESCO ilə əməkdaşlıq etməlidir.

Bütün məktəbəqədər təhsil müəssisələrinin maddi-texniki bazası da müasir tələblərə cavab verməli və orada fəaliyyət göstərən, uşaqların təlim-tərbiyəsi ilə məşğul olacaq səriştəli kadırların cəlb olunması məqsədə uyğundur. Səriştəli kadrların yetişməsində və uğurlu fəaliyyətində təcrübə mühüm əhəmiyyətə malikdir. Bu baxımdan da, belə kadrların yetişdirilməsi üçün dövlət maraqlı olmalı, lazımı və davamlı dəstəyi təmin etməlidir.

## Ədəbiyyat

1. "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyası (2020), Bakı: Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, №12.
2. Azərbaycan Respublikasinin Konstitusiyasi (2016), Bakı: Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, №3
3. Beynəlxalq Təhsil İcmalı (2021), Bakı: ARTİ. URL: https://www.arti.edu.az/az/presentation/1114-arti-quot-beynalxalq-tahsil-icmali-quot-adli-ayliq-bulleteni-taqdim-edir.
4. Dövlət Statistika Komitəsi (2012), Məktəbəqədər təhsil müəssisələrinin sayı. Bakı: URL: http://ikisahil.com/post/162876-mektebeqeder-tehsil-muessiselerinin-sayi-achiqlanib
5. Əliyev, İ. (2021), "Azərbaycan Respublikasında Dövlət məktəbəqədər təhsil sistemində idarəetmənin təkmilləşdirlməsi haqqında" Sərəncam. Bakı, BDU.
6. Məktəbəqədər haqqında Azərbaycan Respublikasının Qanunu (2020), Bakı: Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, №11
7. "Məktəbəqədər təhsil müəssisəsinin Nümunəvi Nizamnaməsi" (2020), Bakı: Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, №8
8. Cortázar, A. (2015), Long-term effects of public early childhood education on academic achievement in Chile. Early Childhood Research Quarterly, 32. 13–22. https://doi.org/-10.1016/j.ecresq.2015.01.003
9. Dean, JT, Jayachandran, S (2019), Attending kindergarten improves cognitive but not socioemotional development in India. Working Paper. https://faculty.wcas.northwestern.edu/~sjv340/kindergarten.
10. Haeil, J. & Amer, H. (2016), The impact of early childhood education on early achievement gaps in Indonesia. Journal of Research on Educational Effectiveness 14:1, pages 28-56.
13. Abuya, B. A., Admassu, K., Ngware, M., Onsomu, E. O., & Oketch, M. (2015), Free Primary Education and Implementation in Kenya: The Role of Primary School Teachers in Addressing the Policy Gap. SAGE Open. https://doi.org/10.1177/2158244015571488
11. OECD (2019), Education at a Glance 2019: OECD Indicators, OECD Publishing, Paris, https://doi.org/10.1787/f8d7880d-en.
12. UNESCO Policy Paper 46: Right from the start: build inclusive societies through inclusive early childhood education (July 2021) UNESCO Publishing, France, https://en.unesco.org/news/-unesco-urges-governments-make-early-childhood-education-accessible-all-1

**Rəyçi: ped.ü.f.d Zəhra Muradova**

Göndərilib: 11.05.2022 Qəbul edilib: 13.06.2022